## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən vahid gömrük siyasətinin həyata keçirilməsi, gömrük xidmətinin səmərəli fəaliyyətinin təmin edilməsi, komitənin təşkilat strukturunun möhkəmləndirilməsi məqsədi ilə **qərara alıram:**

*1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:*[1]

***Kollegiyanın sədri:***

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri;*

***Kollegiyanın üzvləri:***

*Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini;*
*Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavinləri;*
*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri;*
*Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Aparatının baş idarə rəisləri;*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının İnsan Resursları idarəsinin rəisi;*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Aparatının Hüquqi təminat idarəsinin rəisi;*
*Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi;*
*Bakı Baş Gömrük İdarəsinin rəisi;*
*Sumqayıt Baş Gömrük İdarəsinin rəisi.*

~~2. Tutduqları vəzifələrə görə aşağıdakı şəxslər kollegiyanın tərkibinə daxil edilsinlər:~~[2]

~~**Kollegiyanın sədri:**~~

~~Dövlət Gömrük Komitəsinin sədri;~~

~~**Kollegiyanın üzvləri:**~~

~~Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini;~~
~~Dövlət Gömrük komitəsi sədrinin müavinləri;~~
~~Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi;~~
~~Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin rəisi;~~
~~Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisi; Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin rəisi Kadrlar İdarəsinin rəisi;~~

~~Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri;~~
~~Bakı Baş Gömrük İdarəsinin rəisi;~~
~~Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi;~~
~~Sumqayıt Baş Gömrük İdarəsinin rəisi;~~

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 30 iyul tarixli 285 №-li qərarı ləğv edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

**Bakı şəhəri, 1 may 1995-ci il**
**№ 170**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 10 dekabr 2004-cü il tarixli 540 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 11 dekabr 2004-cü il, № 287, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 12, maddə 1028**)
2. 2 dekabr 2008-ci il tarixli 28 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 3 dekabr 2008-ci il, № 271, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1057**)
3. 21 yanvar 2011-ci il tarixli **374** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 22 yanvar 2011-ci il, № 15, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, №01, maddə 21**)
4. 12 noyabr 2018-ci il tarixli **671** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti 18 noyabr 2018-ci il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2327**)

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

[1] 2 dekabr 2008-ci il tarixli 28 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 3 dekabr 2008-ci il, № 271, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1057**) ilə 2-ci bəndində **"Gömrük Qaydalarının Pozulması və Qaçaqmalçılıqla Mübarizə Baş İdarəsinin rəisi"** sözləri **"Gömrük Sahəsində Hüquqpozmalara qarşı Mübarizə Baş İdarəsinin rəisi"** sözləri ilə əvəz edilmişdir **və "Naxçıvan Muxtar Respublikası Gömrük Komitəsinin sədri"** sözləri **"Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri"** sözləri ilə əvəz edilmişdir.

10 dekabr 2004-cü il tarixli 540 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 11 dekabr 2004-cü il, № 287, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 12, maddə 1028**) ilə 2-ci bəndində "**Baş Maliyyə-Tarif İdarəsinin rəisi**" sözləri "**Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisi**" sözləri ilə əvəz edilmişdir.

10 dekabr 2004-cü il tarixli 540 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 11 dekabr 2004-cü il, № 287, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 12, maddə 1028**) ilə 2-ci bəndində "**Kadrlar İdarəsinin rəisi**" sözlərindən əvvəl "**Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin rəisi**" sözləri, "**Bakı Baş Gömrük İdarəsinin rəisi**" sözlərindən sonra "**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi**" sözləri əlavə edilmişdir.

21 yanvar 2011-ci il tarixli **374** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 22 yanvar 2011-ci il, № 15, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, №01, maddə 21**) ilə 2-ci bəndində "**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi**" abzasından sonra yeni məzmunda abzas əlavə edilmişdir.

12 noyabr 2018-ci il tarixli **671** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti 18 noyabr 2018-ci il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2327**) ilə 1-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasınIn tərkibi təsdiq edilsin.~~

[2] 12 noyabr 2018-ci il tarixli **671** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti 18 noyabr 2018-ci il, № 260, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 11, maddə 2327**) ilə 2-ci hissə ləğv edilmişdir.